**UOT: 930.85**
**ORCID: 0009-0003-5059-1830**
**https://doi.org/10.52094/YHOJ5786**

**Nuradə Ələskərli Tərlan qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**nuradaalaskarli@gmail.com**

# CƏNUB BÖLGƏSİNİN YAS ADƏTLƏRİ: DƏYİŞİKLİKLƏRİN TARİXİ KONTEKSTİ

**Xülasə:** Bu məqalə Azərbaycanın Cənub bölgəsində formalaşmış yas mərasimlərinin tarixi inkişaf dinamikasını və müasir dövrdəki dəyişikliklərini sistemli şəkildə təhlil edir. Məqalədə ilkin olaraq ənənəvi yas praktikalarının formalaşma prosesi, onların sosial funksiyaları və simvolik məzmunu araşdırılır. Modernləşmə siyasətləri, nəsillərarası fərq, iqtisadi-sosial transformasiyalar və qloballaşma prosesinin bu adət-ənənələrə təsiri elmi yanaşma ilə şərh edilir. Eyni zamanda, müasir cənub cəmiyyətində yas mərasimlərinin yeni formaları və onların kollektiv yaddaşda və kimlik quruculuğunda oynadığı rol qiymətləndirilir. Məqalədə həmçinin bu dəyişikliklərin cəmiyyətin kollektiv yaddaşında və mədəni kimliyində necə əks olunduğu da izah edilir.

Araşdırmanın nəticələri göstərir ki, Cənub bölgəsinin yas adətləri zamanla sosial-iqtisadi və ideoloji təsirlərlə dəyişsə də, bölgənin mədəni yaddaşında yalnız sosial öhdəlik deyil, həm də mənəvi borc kimi qorunub saxlanmışdır.

**Açar sözlər:** mədəniyyət, adət, yas, cənub bölgəsi, yas mərasimləri.

Azərbaycanın qədim və zəngin mədəniyyətə sahib bölgələrindən biri olan Cənub bölgəsi əsasən Lənkəran, Astara, Masallı, Lerik və Yardımlı rayonlarını əhatə edən ərazinin özünəməxsus adət və ənənələri vardır. Cənub bölgəsinin yas mərasimləri əsrlər boyu formalaşmış, xalqın inanclarını, dini baxışlarını, sosial strukturlarını və həyat tərzini əks etdirən bir mədəniyyət koduna çevrilmişdir. Tarixi mənbələr və şifahi ənənələr göstərir ki, bu bölgədə yas mərasimləri təkcə mərhumun dəfn olunması ilə məhdudlaşmır, həm də kollektiv matəm ifadəsinin və cəmiyyətin həmrəyliyinin təzahürü kimi çıxış edir. Cənub bölgəsinin yas adətləri zaman-zaman müxtəlif tarixi, siyasi və sosial dəyişikliklərə məruz qalsa da, biz bu adətlərin bəzilərinin tamamilə yox olduğunun, bəzilərinin isə yeni,

daha sadə formalarla bölgənin bir sıra kəndlərində bəzi ailələr tərəfindən yaşadıldığının və əsasən də öz əsas mahiyyətini qoruyub saxladığının şahidi oluruq.

H.Quliyevin də qeyd etdiyi kimi, "qədim və müasir dövrün yas mərasimlərinə müqayisəli nəzər salarkən onun ibtidai dövrün yadigarı olduğu aydın olur" [7, s. 85].

Buna görə də, müasir dəyişikliklər və cəmiyyətdəki gözləntiləri nəzərə alsaq bugünkü dəyişikliklər daha çox formaya, təşkilata və sosial adaptasiyaya yönəlmişdir. Hazırkı mərhələdə cənub bölgəsində yas mərasimləri həm dini, həm də mədəni bir hadisə olaraq qalır. İslam dininin qaydalarına riayət edilir, dəstək ənənələri və kollektiv iştirak da qorunur. Bununla belə, bəzi problemlər də meydana çıxır: mərasimlərin bəzən formal xarakter daşıması, maddi çətinliklər və gənc nəslin dəyişən münasibətləri. Buna cavab olaraq "israfçılıqdan uzaq, mənəvi dəyəri üstün olan yas mərasimləri" ideyası getdikcə daha çox dəstək qazanır. Eyni zamanda şəhərləşmə, maddi şərtlərin dəyişməsi və sosial şəbəkələrin təsiri ilə yas mərasimlərinin keçirilmə forması dəyişir. Ailələr daha sadə və qısa mərasimlərə üstünlük verirlər, bəzi hallarda isə mərhumun xatirəsinə onlayn dualar oxunur və sosial mediada başsağlıqları paylaşılır. Nəticədə, müasir dövrümüzdə yas və dəfn mərasimləri öz məzmun və mahiyyətini itirib, formasını dəyişmişdir. Maraqlıdır ki, bəs tarixən bu mərasimlər necə icra olunub?

Belə ki, qədim tariximizdə bu mərasimlərin necə icra olunmasına nəzər yetirəndə bizə aydın olur ki, cənub bölgəsinin qədim və zəngin mədəni irsi, adət-ənənələri və folkloru uzun illərdir tədqiqatçıların maraq dairəsində olmuşdur. Bu sahədə dəyərli araşdırmalar aparan alimlər və yazıçılar arasında Həsən Quliyev, Azad Nəbiyev, Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı, Teymurbəy Bayraməlibəyov, Məhəbbət Paşayeva və digər müəlliflər mühim yer tutur. Bu müəlliflərin əsərləri cənub bölgəsinin unudulmaqda olan qədim və mədəni dəyərlərinin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb edir. Həmçinin bizə məlumdur ki, keçmişdə cənub bölgəsinin yas və dəfn mərasimləri müxtəlif ayinlər, adət və ənənələrlə müşayiət olunmuşdur. Belə ki, ölü düşən evdə qadınlar üzlərini cırar, sinələrini, dizlərini yumruqla döyərək uca səslə qışqırar və hönkürtü ilə ağlayarlarmış. Mərhumu qəbiristanlığa aparanadək bu ayin icra olunar, qadınlar ağlayaraq bir-birinin ardınca ağılar, bayatılar oxuyar, yas mərasimində isə mərsiyyə deyərlərmiş. Cavan qadınlar və qızlar saçlarını yolub ölünün üstünə tökərlərmiş.

Qədim tarixə malik olan bu ayini "Kitabi-Dədə Qorqud" dastanında da izləmək mümkündür.

Evdəki bütün güzgülərin üzərinə ağ örtük çəkərmişlər ki, qara qüvvələr evdə məskunlaşmasın. Keçmişdə olduğu kimi, bu gün də adət üzrə dəfnlə bağlı ev sahibinə ən yaxın qohumları, qonşuları kömək edir və vaxt itirmədən hərə bir tapşırığın icrası ilə məşğul olur: qəbiristanlıqda yerin ayrılması, məzarın qazılması, cənazənin yuduzdurulması, kəfənin və s. zəruri olan şeylərin, habelə ehsan üçün süfrəyə lazım olan ərzaqın alınması, cənazənin axirətə yola salınması üçün gərək olan tabutun və s. gətizdirilməsi, başsağlığına gələnlərin qarşılanması və yola salınması məsələləri həll olunur.

Böyükağa Hüseynbalaoğlu və Mirhaşım Talışlının "Lənkəran" adlı kitabında qeyd olunur ki, "yas düşən evlərdə yas sahibinə artıq əziyyət olmamasından ötrü, yasa gələnlər ilk günlərdə öz evlərindən axşam yeməkləri göndərər, sonra isə yeddi, qırx və il mərasimlərində elin köməyilə kiçik ehsan verilərdi" [5, s.397]. Nərgiz Quliyevanın yazdığına əsasən, "Masallı rayonunun Ərkivan kəndində 80-ci illərin əvvvəlinədək meyit yalnız o zaman yerdən götürülərdi ki, bütün yaxın adamlar, qohum-əqraba yığışsın. Həmçinin yaşlı insanlar rəhmətə gedərkən həm evdə, həm də qəbir üstündə üç gün, üç gecə molla oxuyardı. Meyiti apararkən nə geriyə, nə ətrafa baxmaq, yaxud yari yoldan dönüb geri qayıtmaq olmazdı. Qadınlar ölü aparılarkən qəbirstanlığa getməməli, yalnız sonradan ölənin qəbrini yad etməyə gedə bilərdilər" [9, s. 262].

Bildiyimiz kimi bölgədə bu kimi formada bəzi adətlər hazırki dövrdə də bir sıra kəndlərdə yaşamaqdadır. Bununla belə müasir dövrdə müşahidə olunan bir çox dəyişikliklər vardır ki, bunlar aşağıdakılardır: İsrafçılığın qarşısının alınması məqsədilə daha bəsit üsüllardan istifadə edilir, cəmiyyətin tənqidi mövqeyi ilə əlaqədar olaraq hazırda yas mərasimlərində qısa müddətli mərasimlər (3, 7 və 40 gün ənənəsi) getdikcə sadələşdirilir, sadə menyularla minimal ehsanlar verilir. Yas xəbərlərinin sosial media üzərindən yayılması da informasiyalaşmanın və müasirliyin yeni formalarının meydana gəlməsindən xəbər verir.

Azad Nəbiyevin dediyinə görə, "Yas mərasimlərində mərsiyyəçilər ölənin şanı, şöhrəti ilə bağlı mərsiyyələr ilə yanaşı, imamların adı ilə bağlı rəvayətlər, hədislər danışıb, müxtəlif mərsiyyələr oxumasına baxmayaraq, son illərdə yeni dəfn adətlətinin yaranması ilə əlaqədar olaraq belə nəğmələrin ifasına yas mərasimlərində demək olar ki təsadüf edilmir". [11, s. 49]. Lakin, təsadüfi deyil ki, biz elə hazırkı dövrümüzdə də cənub bölgəsinin əksər kəndlərində bu kimi

nəğmələrin hələ də icrasına rast gəlirik. XIX və XX əsrlərin dəfn mərasimlərində qədim yas adətlərinin bir çox elementləri demək olar ki, heç bir dəyişiklik olmadan qalmaqdadır. Görünür, vaxtilə yalnız adlı-sanlı şəxslər üçün hazırlanan yas və dəfn mərasimləri tədricən bütün ölənlər üçün icra edilməyə başlamışdır. Belə ki, yuxarıdakı qeydlərlə azərbaycanlıların, o cümlədən cənub bölgəsindəkilərin keçmiş əsrlərdəki, hətta müasir dövrdəki yas mərasimləri arasındakı uyğunluq aşkar gözə çarpır. Mərasim adətlərinin qorunub saxlanması baxımından yas mərasimləri daha konservativ olduğundan, müasir dövrdə də yaslarda ağlaşma qurulması, mərsiyəxan qadınların ağı, mərsiyyə söyləməsi və məclisdəkilərin də ağıçının səsinə səs verməsi və zümzümə etməsi ənənəsi müəyyən dərəcədə qorunub saxlanmaqdadır.

Əgər biz adət-ənənələrin kök salmasından danışırıqsa o zaman qəbul etməliyik ki, yas mərasimlərinin müflisləşdirici xüsusiyyətləri XX əsrin əvvəlindən başlayaraq meydana gəlib. Bu mərasimlərin keçirilmə mexanizmi icra hakimiyyəti tərəfindən nəzarətdə saxlanılsa da, bizdə qadağaların qarşısını almaq mümkünsüz görünür, çünki heç bir ailə bu mərasimlərin keçiriləməsində geridə qalmış kimi seçilmək istəmir. Müasirlik arxaik mərasimlərin sıxışdırılmasına və getdikcə məişətdən çıxarılmasına gətirib çıxarsa da əsas odur ki, qırılmaz bir bağ, sönməz məşəlin istiqamətverici işığı vardır ki, onun hərarəti bizləri xeyir və şərdə bir arada tuta bilir.

Məhəbbət Paşayevanın dediyinə görə "Lənkəra-Astara bölgəsinin XX əsrin əvvəllərində qeydə alınmış spesifik adətlərindən biri, ölünün üzünə qara yaylıq atmaq imiş. Xalq inamına görə hər bir adam həyatında heç olmasa bir dəfə ölü yumalıdır ki, onu da o dünyada yusunlar. Ölünü yuyan adam dəfndən sonra mütləq çayda və ya hamamda çimmməlidir. Ölü yuyulan yerdə biri ölünün baş ucunda, biri ayaq tərəfində olmaqla iki çıraq yandırılardı" [12, s. 203].

Bir çox mənbələrdə qeyd olunduğu kimi  bu və ya digər bir sıra adətlər vardır ki, əgər ölən cavandırsa, mafənin üstünə qırmızı parça atılır, ailə üzvləri və qohumlar cümə axşamları ilə yanaşı bayram günləri də mərhumun qəbrinə gedib, üzərində şam yandırır, yasin oxutdururlarmış. Yaxın zamanlarda ölü dəfn olunmuş evdə bir neçə il Novruz bayramı "Qara bayram" adlanır və həmin gün qırmızı və qara xonçalar tutulur, mərhumun qəbri üzərinə gül dəstələri ilə yanaşı səməni də aparılırdı. Yasin oxutdurma və bu kimi digər ənənələr müasir dövrümüzdə də öz adəti üzrə icra edilməkdədir.

Lənkəran-Astara bölgəsinin qədim qəbir abidələrində arxaik inamların izlərinə daha çox rast gəlmək mümkündür. Astara-Lənkəran bölgəsində qəbir

yerlərində palıd və alma ağaclarının əkilməsi ənənəsi mövcud olmuşdur. Alma meyvəsi əbədiyyət və ölümsüzlük simvolu kimi izah olunurdu. Yeri gəlmişkən qeyd edək ki, qədimdə Lənkəran və Lerik rayonlarının, eləcə də bütün kəndlərinin ayrıca qəbiristanlığı olmuşdur. Həmin qəbiristanlıqlar əksərən yaşayış ərazisindən təxminən 0,5-1 km uzaqlıqda, üzü günçıxana yerləşmişdir. Apardığım tədqiqat və müsahibələrin nəticəsi ilə yanaşı, eyni zamanda yaşayıb boya-başa çatdığım əraziyə bələd olan bir şəxs kimi qeyd edə bilərəm ki, 1920-ci ilə kimi Lənkəranın ən böyük qəbiristanlığı Sütəmurdov kənd qəbiristanlığı olmuşdur və hazırkı zamanda da şəhər və kənd əhalisinin istifadəsindədir. Bununla yanaşı Sərdaxıl, Velədi və Şıxəkəran kəndlərindəki qədim qəbiristanlıqları da buna aid etmək olar. Bölgədəki qədim qəbir abidələri, xüsusilə də Lənkəran rayonunun Cil kəndində və Lerik rayonunun Xənəgə, Masallının Xişkədərə, Yardımlının Gilər kəndlərindəki insan fiqurlu başdaşları olan qəbir abidələri maraq doğurur.

Məhəbbət Paşayeva “Azərbaycanlıların adət və inancları” adlı tədqiqatında qeyd etmişdir ki, "Xalq arasında yayılmış inama görə narahat ölü yenidən dirilə bilər. Lənkəran, Astara, Lerik bölgəsində xortdan ağ rəngli, it kimi təsəvvür olunur və qəbirstanlıqda yaşadığına inanılır. Ölən adamın dirilərək insanlara, xüsusilə də uşaqlara xətər yetirəcəyindən qorxan xalq onları “xortdan”, “kaftar” adlandırmışlar. Bunun qarşısını almaq və ya ölünün ruhunu razı salmaq üçün ehsan vermək, dua oxumaq, şam yandırmaq kimi müxtəlif ayinlər icra edilirdi" [12, s.172].

Nəticə olaraq demək istəyirəm ki, cənub bölgəsinin yas mərasimləri tarixiliklərini qorumağa çalışır, həm də müasir dövrün sosial reallıqlarına uyğunlaşıb dəyişərək təkamül edir. Bununla yanaşı, cənub bölgəsinin yas mərasim ənənələrinin tədqiqi təkcə dövrün ənənələrinin öyrənilməsi üçün deyil, eyni zamanda azərbaycanlıların qədim dünya görüşlərinin, qədim etiqadlarının, bir sözlə mənəvi mədəniyyət tarixinin erkən mərhələlərinin göz önündə canlandırılınası, Azərbaycan xalqının mənəvi mədəniyyətinin dərinliklərinə enmək baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, cənub bölgəsinin yas adətləri zamanın və cəmiyyətin dəyişən şərtlərinə uyğunlaşaraq özündə həm qədim inancları, həm də müasir tələbləri birləşdirmişdir. Əvvəllər icma əsaslı həyata sıx bağlı olan mərasimlər, bu gün fərdi təşəbbüslərlə daha sadə, lakin mənəvi baxımdan dərin məna daşıyan formaya keçmişdir. Eyni zamanda, bölgənin mədəni yaddaşında yas adətləri yalnız sosial öhdəlik deyil, həm də mənəvi borc kimi qorunub saxlanmışdır. Bu bir daha sübut edir ki, cənubun yas adətləri təkcə folklor nümunəsi deyil, eyni zamanda kollektiv kimlik və sosial

həmrəyliyin mühüm ifadəsidir. Bu dəyişikliklər bir tərəfdən cənub insanının öz köklərinə sədaqətini, digər tərəfdən isə zamanın çağırışlarına çevik reaksiyasını nümayiş etdirir.

**Ədəbiyyat siyahısı**

1. Abdullayev Bəhlul. Haqqın səsi. Bakı, Azərnəşr, 1989, 144 s.
2. Axundov İsaq. Xatirələrimdə yaşayan Lənkəran. Bakı, İsiq nəşriyyatı, 1989, 111 s.
3. Azərbaycan Uşaq Folkloru Kitabxanası. Mərasimlər, adətlər və alqışlar. Bakı, Gənclik, 1993, 352 s.
4. Bayraməlibəyov Teymur bəy. Respublika əlyazmalar İnistitutu, s.v.684, 28591
5. Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı. Lənkəran. Bakı, Maarif nəşriyyatı, 1990, 595 s.
6. Bünyadov Şirin. Orta əsr Azərbaycan ailəsi. Bakı. Elm nəşriyyatı, 2012, 384 s.
7. Quliyev Həsən. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Bakı, Elm nəşriyyatı, 1986, 96 s.
8. Quliyev Həsən. Məişətimizdə adət və ənənələr. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1976, 132 s.
9. Quliyeva Nərgiz. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı, Elm nəşriyyatı, 2005, 346 s.
10. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. Bakı, Çıraq, 2009, 610 s.
11. Nəbiyev Azad. El nəğmələri, xalq oyunları. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1988, 170 s.
12. Paşayeva Məhəbbət. Azərbaycanlıların adət və inancları (XIX-XX əsrlər). Bakı, AMEA, 2019, 296 s.

**Nurada Alaskarli Tarlan gizi**

**Mourning Customs of the Southern Region:**
**the Historical Context of Changes**

**Summary:** This article systematically analyzes the historical development dynamics of mourning ceremonies formed in the Southern region of Azerbaijan and their changes in the modern period. The article initially examines the process of formation of traditional mourning practices, their social functions and symbolic content. The impact of modernization policies,

intergenerational differences, economic and social transformations and the globalization process on these customs and traditions is interpreted with a scientific approach. At the same time, new forms of mourning ceremonies in modern southern society and their role in collective memory and identity construction are evaluated. The article also explains how these changes are reflected in the collective memory and cultural identity of society.

The results of the study show that although the mourning customs of the Southern region have changed over time due to socio-economic and ideological influences, they have been preserved in the cultural memory of the region as not only a social obligation, but also a moral duty.

**Key words:** culture, customs, mourning, southern region, mourning ceremonies.

**Нурада Алескерли Тарлан гызы**

**Траурные обычаи южного региона:
исторический контекст изменений**

**Резюме:** В статье систематически анализируется динамика исторического развития траурных обрядов, сформировавшихся в южном регионе Азербайджана, и их изменения в современную эпоху, а также процесс формирования традиционных траурных практик, их социальные функции и символическое содержание; рассматриваются уникальные традиции, исторические корни и роль, которую сыграли эти обряды в прошлом, и показано, как они менялись с течением времени. Эти забытые с течением времени обычаи доказывают, что ленкоранские трауры имеют богатое культурное наследие, хотя некоторые традиции и изменились, но их следы до сих пор живы в памяти народа и в некоторых семейных традициях. Наша цель – вспомнить эти древние традиции и подчеркнуть важность сохранения нашего культурного наследия и передачи его будущим поколениям. В статье научно интерпретируется влияние политики модернизации, межпоколенческих различий, социально-экономических преобразований и процесса глобализации на эти традиции. Одновременно оцениваются новые формы траурных церемоний в современном южном обществе и их роль в коллективной памяти и формировании идентичности. Также объясняется, как эти изменения отражаются на коллективной памяти и культурной идентичности общества.

Результаты исследования показывают, что хотя траурные обычаи Южного региона со временем изменились под влиянием социально-экономических и идеологических факторов, они сохранились в культурной памяти региона не только как социальная обязанность, но и как моральный долг. Результаты исследования показывают, что хотя траурные обычаи южного региона со временем изменились под влиянием социально-экономических и идеологических факторов, они сохранились в культурной памяти региона не только как социальная обязанность, но и как моральный долг.

**Ключевые слова:** культура, обычаи, траур, южный регион, траурные церемонии.

*Məqalənin redaksiyaya daxilolma tarixi: 30.04.2025*
*Rəyçi: Fəlsəfə üzrə elmlər doktoru, professor Mübariz Süleymanlı*